AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№332/8** **12 iyul 2021-ci il**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2020-ci il 29 dekabr tarixli 327/5 nömrəli "Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2020-ci ildə üzvlük haqqının ödənişi vəziyyəti barədə" qərarının 4-cü bəndinin icrasına dair

Azərbaycan Respublikasının "Auditor xidməti haqqında" Qanununu, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimatın 4-cü "Üzvlük haqqının ödənilməsinin təmin edilməsi və üzvlük haqqı ödənilmədikdə görülən tədbirlər" maddəsinin 15-ci paraqrafının "V" bəndini, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2003-cü il 12 sentyabr tarixli 116/3 nömrəli qərarı ilə təsdiq edilmiş (Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2006-cı il 26 sentyabr tarixli 170/3 nömrəli və 2010-cu il 12 oktyabr tarixli 212/9 nömrəli qərarları ilə edilmiş dəyişiklik və əlavələrlə) "Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin hüquq və vəzifələri haqqında" Əsasnamənin 2.5-ci maddəsini, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nin V bölməsinin 9-cu bəndini rəhbər tutaraq Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2020-ci ildə üzvlük haqqının ödənişi vəziyyəti barədə" 2020-ci il 29 dekabr tarixli 327/5 nömrəli qərarının 4-cü bəndinə uyğun olaraq üzvlük haqqı borclarının tam ödənilməsi üçün vaxt verilmiş "ABAK Az Crovve LTD" MMC-nin və sərbəst auditorlar Rzayev Akifin, Mikayılzadə Raqifin 2020-ci il üzrə üzvlük haqqını ödəmələri nəzərə alınsın.

2. Auditorlar Palatasının üzvü olan sərbəst auditorlar - İsmayılov Səxavət İsmayıl oğlunun və Əliyev İbiş Müseyib oğlunun 2020-ci il üzrə hesablanmış üzvlük haqqına güzəşt tətbiq edilməsi barədə müraciətləri Auditorlar Palatası Şurasının 2011-ci il 20 dekabr tarixli 226/4 nömrəli qərarırının 1-ci bəndinin 1.2-ci paraqrafının "a" bəndinə uyğun olaraq nəzərə alınsın və 2021-ci ildən onlara verilmiş güzəşt ləğv edilsin, eyni zamanda Palata Şurasının 2020-ci il 21 fevral tarixli 317/1 nömrəli qərarının 9-cu bəndinə əsasən illik üzvlük haqqı məbləği 2 920,0 (iki min doqquz yüz iyirmi) manat məbləğində hesablansın.

3. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2020-ci il 29 dekabr tarixli 327/5 nömrəli qərarına məhəl qoymayaraq 2021-ci il 01 yanvar tarixinədək qalmış üzvlük haqqı borcunu ödəmədiyi üçün “ASON AUDİT” MMC-yə auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş 2017-ci il 4 dekabr tarixli AT/147 072722 nömrəli icazə 2021-ci il 12 iyul tarixindən üzvlük haqqı borcu tam ödənilənədək dayandırılsın.

4. “AUDİT GRUP” MMC-nin direktor-auditoru Məmmədov Natiq Həmid oğlu həmin cəmiyyətin yeganə auditoru olduğundan, Bakı şəhəri Binəqədi rayon Məhkəməsinin 2020-ci il 24 sentyabr tarixli İş №4(001) – 792 (2020) qərarına uyğun olaraq barəsində həbs qətimkan tədbiri seçildiyinə, cinayət işi üzrə istintaq aparıldığından və istintaq işinin yekununda məhkəmə qərarı qəbul edilənədək auditor fəaliyyəti ilə məşğul olmaq üçün Məmmədov Natiq Həmid oğluna verilmiş 2018-ci il 05 noyabr tarixli SA/107 və “AUDİT GRUP” MMC-yə verilmiş 2019-cu il 01 fevral tarixli AT/111 qeydiyyat nömrəli icazələr 2020-ci il 24 sentyabr tarixindən dayandırılsın.

5. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 3-cü və 4-cü bəndləri üzrə fəaliyyəti dayandırılmış auditor təşkilatları və auditorlar barədə məlumatları müvafiq orqanlara təqdim etsin və bu istiqamətdə lazımi tədbirləri həyata keçirsin.

6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**